Qərib MEHDİ

# CAZİBƏ

**(təəssürat-esse)**



**Hər dəfə Günəş cümə gününün başlandığını bəyan eləyəndə Saleh Qurbanovun düşüncələrində qəribə bir yerdəyişmə başlayır. O, nəzərdə tutduğu işləri gün ərzində görüb başa çatdıra bilmir. Özündən asılı olmayaraq daşı-daş üstə qoymağı başqa günə təxirə salır. Ağac əkmək istəyəndə də bu hal təkrar olunur. Əkiləcək, bellənəcək sahəni uşaqlara həvalə edir. Qoyun-quzuya baxmaq işi də eləcə... Ədəbiyyat müəlliminin daha vacib üç işi var: şagirdlərin yazı işlərini yoxlayıb qiymətlən-dirmək, mütaliyə etmək və bədii yaradıcılığı ilə məşğul olmaq. Saleh müəllim həftənin cümə günü öhdəsində olan işlərin heç birini lazımınca yarıtmır.**

Çünki səbəb var. Bu səbəbin adı cazibədir. Məkanı da Gəncə şəhəri, İnzibati binanın sağ cinahının dördüncü mərtəbəsində geniş və işıqlı bir otaq. Bu otağın qapısına bir tanınma lövhəsi vurulub: Azərbaycan Yazıçılar Birliyinin Gəncə şöbəsi.

Hər həftənin cümə - beşinci günü bədii yaradıcılıqla məşğul olan qələm sahibləri saat 2 tamamda bu işıqlı otağa toplaşır, yeni yazılarını müzakirəyə ötürür, bəzən də müxtəlif məzmunlu tədbirlərin iştirakçısına çevrilirlər. Bax, Saleh Qurbanov da uzaq yolu qət edib özünü cümə gününün tədbirinə yetirir. Və bu iştirakdan xoşhal olur, mənəvi cəhətdən sənət həzzi duyur. O, işlərini yarımçıq qoyub bu yığıncağa ona görə tələsir, bilir ki, bu yaradıcılıq məkanında onu gözləyən, fikirlərini eşitmək istəyənlər var. Həm də öz şeirləri barədə kiminsə sözünü eşitməyə ehtiyac duyur. Mübahisəli anlar, fikir toqquşmaları da baş verir. Cazibə güclü olduğu üçün mübahisədən doğan gərginlik onu bu yoldan saxlaya bilmir.

Saleh Qurbanov ali təhsilli dil-ədəbiyyat müəllimidir. Daşkəsən rayonunun Xoşbulaq kəndində yaşayır. Pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşğul olur. Bir ara icra hakimiyyətində də ictimai-siyasi qabiliyyətini göstərib. Sonra görüb ki, şagird səsli məktəb işi onun üçün daha münasibdir. Qələm sahibi üçün vacib keyfiyyətlərə malikdir: mütaliyə edir, dövrü mətbuatda məqalə və resenziyaları dərc olunur. Əsasən poeziyaya üstünlük verir. Necə yazır? (Bu sualı bir də yazımın sonunda təkrarlayacağam). "Azərbaycan" jurnalında, "Ədəbiyyat və incəsənət", "Kaspi", "Ədalət", "525-ci qəzet" və sair dərgilərdə nəşr olunmağı onun qələminin püxtə olma-sından xəbər verir. Ömürdaşı İbadət xanımın da qələmi poeziyaya meyllidir. Mürəkkəbi qurumamış yazıların bir evdə iki yaradıcı şəxs tərəfindən müzakirədən keçirilməsi sonrakı mərhələ üçün uğur vəd edir. Saleh müəllim mən işlədiyim universitetin - GDU-nun məzunudur. Onun aşağı-yuxarı kurslarda oxuyan qələm sahibləri ilə yaxın əlaqələri olub. Bahadur Fərman, Sahib İbrahimli, İnqilab İsaq, Aydın Murovdağlı, Qəşəm Nəcəfzadə, Sərvaz Hüseynoğlu, Valeh Bahadıroğlu ilə gah Gəncədə, gah da Xoşbulaqda yaxından ünsiyyətdə olub, çağdaş və klassik sənətin sirləri barədə fikir mübadiləsi aparıblar. Qəribə də olsa, mənim bu əlaqələrdən xəbərim olmayıb. Bəlkə, buna Saleh müəllimin iddiasızlığı şərait yaradıb. Az-çox imzası tanınan iddialılar tezliklə kitab çıxartırır, bundan sonra Yazıçılar Birliyinin üzvü olmaq asanlaşır. Çox vaxt rəsmiləşmək yaxşı yazmağı üstələyir. Salehin gözəgirmək xasiyyəti yox, kitabı yox, təşkilata üzv olmaq canatımı yox. Məni qınamayın, belə olan halda Saleh Qurbanov kimi istedadı (o dövrdə heç qəzet-jurnal səhifələrində çap olunmağa da can atmırmış) necə tanıya bilərdim?! Yalnız təsadüf bizi bir araya gətirə bilərdi. Günlərin birində belə bir təsadüf alındı.

İş belə gətirdi ki, tanınmış bir elm-ədəbiyyat adamının yas yerində yanaşı oturmalı olduq. müxtəlif mövzulu söhbətlərdən tez ötüşüb ədəbi aləmdə qərarlaşdıq. İlk dəfə gördüyüm orta yaşlı bu adamın ədəbi aləmə səriştəli sərgüzəşti məni çox maraqlandırdı. Xüsusilə, bəzi çağdaş yazarlar ba-rədə qədərincə sərt mövqe sərgiləyirdi. Həm də ədəbi ictimaiyyət tərəfindən qəbul olunan müəl-liflərin adını çəkir, onların yaradıcılığından misallar gətirir, barışmazlığını, tənqidi fikirlərini faktlarla sübuta yetirirdi. Gerçək ədəbiyyatın təəssübünü çəkən bu adamla tanışlığımdan məmnun qaldım. Baxmayaraq ki, onun tənqidi mülahizələrinin bəzi məqamları ilə barışmadım. Xeyli zaman ötüşəndən sonra bildim ki, həmin şəxs indi haqqında söz açdığım şair Saleh Qurbanovdur. Sonrakı müşahidələrim ilk təəssüratıma düzəliş verdi. O, həqiqəti tapmaq üçün mübahisəyə can atsa da, sən demə, təbiəti etibarı ilə mülayim adam imiş.

Günlərin birində bir məsələ ilə bağlı mənimlə görüşmək istədiyini bildirdi. Görüşdük. Maraqlı təklifini ortalığa çıxartdı. Ədəbiyyatda problem sayıla biləcək 7 sual tərtib etmişdi. O, bu 7 sualı 7 müəllif arasında paylaşmaq istəyirdi. Təklifi maraqla qarşıladım. Suallarla tanış oldum. Mənə elə gəldi ki, suallar xeyli "cəncəl" məsələlərə toxunur. O, məndən reaksiya gözləyirdi. Mən isə fikrə getmişdim. Dözməyib dilləndi:

- Hə, nə deyirsiniz?

Dedim:

- Fikrə getməyim başqa səbəbdəndir. Ciddi məsələlərə toxunubsunuz. Gerçək cavablar kiminsə xətrinə dəyə bilər. Mən "pis adam" olmaqdan çəkinmirəm. 7 sualın hamısına cavab verəcəyəm. Qalan 6 nəfərin cavab verəcəyinə o qədər də inanmıram. Ola bilər ki, daha bir adam suallarınızı cavablandırsın.

Dediyim kimi də oldu. Məndən savayı Gülafət xanım da Saleh müəllimin tərtib etdiyi sualları cavablandırdı. Sonra mən həmin sualları cavablarla birlikdə mətbuatda çap elətdirdim. Bununla kifayətlənməyib bu maraqlı mətni kitabıma da



daxil etdim.

Saleh Qurbanovun fəaliyyətində ədəbiyyatşünaslıq, tənqidçilik (əslində təhlilçilik) də özünü büruzə verir. Tanınmış şairlərdən Bahadur Fərmanın, İnqilab İsaqın, Sahib İbrahimlinin və b. haqqında yazdıqlarından yəqinləşdirirsən ki, bu məhsullar ədəbiyyata, poeziyaya dərindən bələd olan bir adamın qələmindən çıxıb.

O, dostluqda, yoldaşlıqda münasib sayılacaq fikir adamıdır. Ona getdikcə artan rəğbətimi bir simvolik qərarımla şərtləndirdim. "Aman ayrılıq" povestimin müsbət qəhrəmanına onun adını seçdim: Saleh müəllim.

Onun dünyası mübahisələr zamanı daha aydın çözülür. Qərarında sabitqədəmdir. Rəqibi qarşısında hər saat geri çəkilən deyil. Onu təkzibolunmaz dəlillərinlə inandırmalısan.

Hərdən mənimlə də mübahisələri dartışmasız keçmir. Xüsusilə, publisistika barədə. O, zənn edir ki, poeziyada publisistik ruh olmamalıdır. Fikrini sübut üçün böyük şairimiz Əli Kərimin yaradıcılığına müraciət edir.

Mən isə bu fikrin əks istiqamətində yer alıram. Deyirəm ki, çağdaş dövr poeziyanın bətninə obrazlı şəkildə təcəssüm olunan publisistik ruhu qəbul edir və bəlkə də vacib sayır. Mən də fikrimin təsdiqi üçün daha bir böyük şairimizin - Məmməd Arazın yaradıcılığına üz tuturam. Məqsədimiz bir-birimizi "təslim" eləmək yox, bir-birimizdən öyrənməkdir.

Saleh Qurbanov hansı şairlərin ustalığında öz şeirlərinin cilasını, ovxarını artırır? "Ver sözə ehya" deyən Məhəmməd Füzulinin, "Öldür məni, gər var isə günahım; Al qanım əllərdə hənalar olsun" ricalı Molla Pənah Vaqifin, "Yanağın qırmızı, buxağın ağdı; Çıraqban eyləyib ağı qırmızı" söyləyən Aşıq Ələsgərin, "Qayıt, yerinə qoy ayı, günəşi; Qayıt səhmana sal bu kainatı" yalvarışlı Əli Kərimin və bu ruha yaxın olan başqalarınınmı? Yəqin ki, hamısının. Maraqlı burasıdır ki, bu bədii qidalanmalardan sonra o, öz orijinal şeirini yaradır. Hətta ən döyənək mövzularda belə. Onun poetik dünyasından yalnız bir bütöv şeir seçib bu yazıya daxil edirəm. O məqsədlə ki, qoy oxucular mənim sözlərimin səmimiyyətini yoxlasın.

### *DAĞLAR*

**Gələni, gedəni gözündən qoymaz,**
**İllərdir görürəm ayıq dağları.**
**Duman boz dənizdi, bulud yelkəni,**
**Tufanlar batırmaz qayıq dağları.**

**Nur içir Günəşdən çeşmənin buzu,**
**Yandırır çəməni çiçəyin közü.**
**Vurulub qayaya şəlalə qızı,**
**Qorxuram salalar duyuq dağları.**

**Çayları təntidir dərənin kini,**
**Zirvələr atıbdı gözdən mürgünü.**
**Geyinir əyninə duman kürkünü,**
**Bilmərik üşüdər soyuq dağları.**

**Göylərmi yaradıb o ağ qədəhi?**
**Şimşək sındırmadı o sağ qədəhi.**
**Qaldırıb başına bulaq qədəhi,**
**Bu səhər görmədim ayıq dağları.**

Şairin başqa şeirləri heç də nümunə gətirdiyim bu şeirdən aşağı səviyyəli deyil. Şübhəniz varsa, onun dövrü mətbuatda dərc olunan bədii yazılarını tapıb oxuya bilərsiniz.

Çox sayda bir-birindən dəyərli şeirləri olmasına baxmayaraq Saleh Qurbanov hələ kitab müəllifi deyil. Özümü istəmir, ya maddi çətinliklə üzləşir? Bu sirrin açarı məndə deyil.

O yaxşı bilir ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü olmaq istəyənə kitab məsələsi şərt kimi irəli sürülür. Yalnız kitab məsələsinin həllindən sonra üzvülük, üzvlükdən sonra isə Prezident mükafatının qapıları onun üzünə açıla bilər. Dağlar şairi bu yoldan bilərəkdən yan durur, yoxsa başqa bir maneə var?.. Hələ ki özü bildiyini bizə demir.

***

**Hər həftənin cümə günü görüləsi vacib işlərini yarımçıq qoyub daha vacib bir ünvana AYB-nin Gəncə bölməsinə üz tutur. Orada bədii sözün sehri var. Saleh Qurban (bu dəfə soy adını belə işlətdim) bütün varlığına hakim olan o sehrin cazibəsindən çıxa bilmir.**